# HÜQUQ VƏ İNSAN HAQLARI İNSTİTUTU

## İLLİK HESABAT – 2022

## FƏALİYYƏTİMİZ

### İNSAN HAQLARI SAHƏSİ

**TƏDQİQATLAR**

**8** mövzu, **6** istiqamət üzrə **15** elmi araşdırma aparılmışdır.

**TƏDBİRLƏR**

**19** tədbir keçirilmişdir (konfranslar, təlimlər və s.).

**NƏŞRLƏR**

**3** elmi kitab, **5** monoqrafiya nəşr edilmişdir.

**TƏLİMLƏR**

Əməkdaşlar üçün əqli mülkiyyət hüququ, insan hüquqları və azadlıqları mövzuları da daxil olmaqla **6** təlim keçirilmişdir.



**Hüquq və İnsan Haqları İnstitutu** 1999-2022-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyasının tərkibində fəaliyyət göstərib. Azərbaycan Respublikası Prezidentinin 19 may 2022-ci il tarixli fərmanı ilə “Hüquq və İnsan Haqları İnstitutu” publik hüquqi şəxs statusunda “Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi”nin tabeliyindədir.

### İNSTİTUTUN MƏQSƏDLƏRİ

- Hüquq sahəsində elmi araşdırmaların aparılması;
- Elmi-praktiki tövsiyələrin hazırlanması;
- Normativ hüquqi aktların hüquqi təhlilinin aparılması;
- Hüquqi maarifləndirmə.

### İNSTİTUTUN STRUKTURU

İnstitut İdarə Heyətinin sədrindən, iki müavindən və 7 şöbədən (Hüquqi tədqiqat şöbəsi, İnsan hüquqları üzrə təlim və ekspertiza şöbəsi və s.) ibarət struktura malikdir. İdarə Heyətinin sədri h.ü.f.d. Məhəmməd Quluzadədir.

institutun saytı
www.lhri.az

e-mail ünvanı
info@lhri.az

facebook
fb.com/www.lhri.az

Saytdan istifadə edənlər : **15030**

Facebook postlarının sayı : **91**

İnstitutun ünvanı :
AZ1073, Azərbaycan,
Bakı şəhəri,
H. Cavid pr. 125
(Akademiya şəhərciyi)

# HÜQUQ VƏ İNSAN HAQLARI İNSTİTUTU



### 2022-ci ildə çap edilmiş kitabların bəziləri:

- Ailəlogiya;
- Seçki hüququ;
- Cinayət mühakimə icraatında dövlət dilinin tətbiqi;
- Qarabağ zəfəri: beynəlxalq hüquq və tarixi reallıqlar kontekstində.



### 2022-ci ildə keçirilmiş təlimlərin bəziləri:

- Normayaratma texnikasına dair təlim;
- Əqli mülkiyyət qanunvericiliyi: Azərbaycanda problemləri və inkişaf perspektivləri;
- HUDOC məlumat bazası;
- Müqavilə qanunvericiliyinin postsovet məkanında inkişafı və Aİ-nin müqavilələrini yeniləşdirmək prinsipi;
- İnsan hüquqlarına dair mübahisələrin beynəlxalq tribunallara götürülməsində *ratione materia* kriteriyası.

### Məqalələrin bəziləri:

- Biotibbi tədqiqatların aparılması zamanı insan hüquqlarına əməl olunması zərurəti;
- 44 günlük müharibənin yaratdığı yeni reallıqlar və Azərbaycanın hüquq sistemi;
- Qadın hüquqları: beynəlxalq və milli hüquqda;
- Süni intellektin cəmiyyət və dövlət təhlükəsizliyi üçün yaratdığı təhdidlər.



### Araşdırmaların istiqaməti:

- Terrorizm və insan hüquqları;
- İnsan və vətəndaşların konstitusion hüquq və azadlıqlarının müdafiəsinin müasir tendensiyaları;
- Avropa Məhkəməsinin təcrübəsi;
- İkinci Qarabağ müharibəsi;
- İnformasiya təhlükəsizliyi.

## GÖRÜLMÜŞ DİGƏR İŞLƏR:

- İnstitut "beyin mərkəzləri"nin qlobal bazası olan On Think Tanks (OTT) platformasına "hüquq, insan haqları, ədliyyə və təhsil sahəsində ixtisaslaşan beyin mərkəzi" kimi daxil edilmişdir.
- QHT-lərlə onlayn müzakirə.
- Universitetlərin hüquq və jurnalistika fakültələrinin tələbələri arasında İnsan Hüquqları Gününə həsr olunmuş müsabiqə keçirilmişdir.
- İnstitutun nəşrlərindən **2450 ədəd kitab** ölkəmizin dövlət qurumlarının müxtəlif kitabxana fondlarına hədiyyə olunmuşdur.
- "Qadın hüquqları", "Ekoloji təhlükəsizlik", "İnsan hüquqlarının qorunması", "İdarəetmənin konstitusion əsasları" və s. mövzular daxil olmaqla **97 elmi məqalə** və **31 tezis** müxtəlif mətbuat orqanlarında dərc edilmişdir.